## Əməkdaşlıq fəaliyyətləri

- AQTA ilə Kanadanın müvafiq qurumu arasında qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlar – Kodeks Alimentarius Komissiyası, “Bitki Mühafizəsi haqqında” Beynəlxalq Konvensiya və Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı çərçivəsində səmərəli əməkdaşlıq həyata keçirilir, məlumat mübadiləsi aparılır.
- Kanadanın qida təhlükəsizliyi sisteminin beynəlxalq standartlara və Azərbaycan Respublikasının milli qida təhlükəsizliyi sisteminə uyğunluğunu nəzərə alaraq, həmçinin aparılmış təhlillərə əsaslanaraq, Azərbaycan Respublikasının “Qida təhlükəsizliyi haqqında" Qanunundan irəli gələrək 2025-ci il 13 avqust tarixində Kanadanın qida təhlükəsizliyinə nəzarət sisteminin ekvivalentliyinin tanınması barədə AQTA tərəfindən qərar qəbul edilmişdir. Nəticədə, Kanadanın yüksək riskli qida və yem məhsulları istehsal edən müəssisələri Agentlik tərəfindən əlavə qiymətləndirmə tədbirləri aparılmadan Kanadada qeydiyyata alındıqdan və (və ya) təsdiq edildikdən sonra öz məhsullarını Azərbaycan Respublikasına ixrac edə biləcəklər.
- Azərbaycan Respublikası ilə Kanada arasında idxal üçün ümumilikdə səkkiz sənəd razılaşdırılmışdır. 2019-cu ildə məhsuldar olmayan heyvanlar üçün yemə dair baytarlıq sertifikatı, ət məhsulları üçün müfəttişlik sertifikatı, iribuynuzlu heyvanlar üçün baytarlıq sağlamlıq sertifikatı, balıq və dəniz məhsulları üçün sanitar sertifikat, eləcə də bir günlük cücə və inkubasiya yumurtaları üçün baytarlıq sertifikatı və 2021-ci ildə buğa toxumu üçün baytarlıq sertifikatı, 2025-ci ildə isə it və pişik yemləri, habelə heyvan mənşəli yem və yem əlavələri üçün baytarlıq sağlamlıq sertifikatları razılaşdırılmışdır.